# İşğalçı müharibəyə qoşulanlar



***Dəfələrlə xəbərdarlıq edilməsinə baxmayaraq, Azərbaycan vətəndaşlarının Rusiya-Ukrayna müharibəsində iştirakı davam edir. Azərbaycanəsilli hərbçilərin ölüm və itkin düşməsi halları da daha çox qeydə alınır. Son məlumatlara görə, döyüşlərdə daha 5 həmyerlimizin ölüm faktı təsdiqlənib. Belə ki, Rusiya ordusunun sıralarında vuruşan Rəhimov Rafiq Ənvər oğlu (1983-cü il təvəllüd), Qəribov Teymur Əmrah oğlu (1989-cu il), Həsənov Sadıx Qabil oğlu (1978-ci il), Abdullayev Rəşid Nizaməddin oğlu (1989-cu il) və Aydoğan Səbahəddin İzzəddin oğlu (2001-ci il) Rusiya-Ukrayna cəbhəsinin Donetsk, Zaporojye və Xarkov vilayətləri istiqamətlərində keçirilən döyüş əməliyyatlarında həlak olub. Xatırladaq ki, Rusiya-Ukrayna müharibəsində bu vaxta qədər yüzlərlə azərbaycanlı həyatını itirib yaxud itkin düşüb.***

## Aktual

Bu məsələ rəsmi Bakıda ciddi narahatlıq doğursa da, Rusiya tərəfi miqrantların hərbi xidmətə çağrılması və onların Ukraynaya qarşı müharibədə iştirakı səviyyəsini genişləndirir. Müxtəlif vədlərlə döyüş bölgəsinə aparanların ölkələrində gələcək hüquqi məsuliyyətinin qarşısını almaq üçün Kreml rəhbərliyinin son qərarı da ciddi müzakirə mövzusudur. **Belə ki,**

**Prezident Vladimir Putin Rusiya** Silahlı Qüvvələri tərkibində Ukraynaya qarşı hərbi əməliyyatlarda iştirak edən şəxslərin xarici ölkələrə ekstradisiyasından imtina edən qanunu imzalayıb.

Yeni qaydalara əsasən, hazırda Rusiya Silahlı Qüvvələrinin tərkibində və digər hərbi birləşmələrdə müqavilə əsasında xidmət edən və ya xidməti başa vuran, eləcə də döyüş əməliyyatlarında iştirak edən xarici vətəndaşları və vətəndaşlığı olmayan şəxslər ekstradisiya edilməyəcək. Yeni qaydalar xarici dövlətlərin bu cür şəxslərin cinayət məsuliyyətinə cəlb edilməsi və ya hökmün icrası üçün ekstradisiyası ilə bağlı sorğuları imtina üçün əsas olacaq.

Qeyd edək ki, Azərbaycan Respublikasının Baş Prokurorluğu bir neçə ay öncə bununla bağlı məlumat yaymış və həmin şəxslərin cinayət məsuliyyətinə cəlb olnacağı barədə xəbərdarlıq etmişdi.

■ **Milli Məclisin deputatı Aydın Mirzəzadə Hafta.az-a bildirib ki, əgər Azərbaycanda yaşayan şəxs Ukrayna vətəndaşıdırsa, bu döyüşlərə qatılmaq, artıq onun şəxsi problemidir. Azərbaycan Respublikasının vətəndaşı könüllü şəkildə bu müharibəyə qoşulursa, bu artıq onun ölkəmizin qanunları qarşısında ciddi məsuliyyət daşımasına səbəb olur.** "Bizim qanunvericiliyə görə vətəndaşlarımızın xarici hərbi münaqişələrdə iştirakı ağır cinayət sayılır. Bu fakt təsdiqini taparsa, həmin şəxs məhkəmə qarşısında cavab verməlidir", -deyə deputat əlavə edib. A.Mirzəzadə yaxın keçmişdə qarşılaşdığımız nümunələrə diqqət çəkib:

"Bir müddət əvvəl bəzi vətəndaşlarımız Suriya-İraq sərhədinə keçərək, İŞİD sıralarında döyüşlərdə iştirak edirdilər. Onların iştirakı sübuta yetiriləndə bu gün uzunmüddətli həbs cəzalarına məhkum olunurlar. Mən vətəndaşlarımızı nəinki bu müharibədə, ümumiyyətlə, xarici hərbi münaqişələrdə iştirakdan çəkinməyə çağırıram. Birincisi, bu hüquqi məsuliyyət yaradır. İkincisi isə onların özləri və ailələri üçün çox ciddi mənəvi və sosial problemlərə səbəb olur".

*Bizim qanunvericiliyə görə, vətəndaşlarımızın xarici hərbi münaqişələrdə iştirakı ağır cinayət sayılır*

*Belə bir vəziyyətdə Azərbaycan vətəndaşının gedib bu prosesdə iştirak etməsi üçün heç bir əsas yoxdur*

*Rusiyanın əsas məqsədlərindən birinin keçmiş Sovet məkanında təsir imkanlarını bərpa etməkdir*

A.Mirzəzadə deyib ki, belə hallarda həmin şəxslər həlak olduqda və ya yaralandıqda, döyüşdükləri ölkə onların müalicəsi, pensiyası və ya ailə başçısının itkisinə görə ailəsinə hər hansı ödəniş etmir:

"Bu, ciddi problemlərdən biridir. Digər tərəfdən, başqa bir dövlətin müharibəsində iştirak etmək həm psixoloji, həm də sosial ağır nəticələr doğurur. Müharibədə iştirak edən şəxs sonradan bu ağır psixoloji yükü öz ailəsinə və ətrafına gətirə bilər. Uzun müddət ailədən uzaqda qalmaq uşaqların atasız böyüməsinə səbəb olur. Cavan oğlanlar isə ya həyatlarını itirir, ya ailə qurmaq imkanından məhrum olur, ya da müharibədən aldıqları ağır psixoloji travmanı gələcəkdə ailələrinə daşıyırlar. Bir sözlə, bu məsələdə gənclərimiz kifayət qədər məsuliyyətli və ciddi olmalıdırlar. Azərbaycan dövləti və xalqı heç bir yerdə müharibə olmasını istəmir.

Ümid edirik ki, bütün münaqişələr danışıqlar yolu ilə, sülh şəraitində həll olunacaq. Əgər kimsə duyğusal hisslərlə və ya pul müqabilində bu döyüşlərdə iştirak etməyi düşünürsə, yuxarıda sadalanan bütün riskləri və nəticələri əvvəlcədən nəzərə almalıdır",- deputat deyib.



■ **Siyasi ekspert Azər Həsrət bildirib ki, rusiyapərəst siyasi dairələr anlamalıdır ki, Azərbaycan vətəndaşları, xüsusilə də işğalçı Rusiyanın ordusunda xidmət edərək bizə dost olan Ukraynaya qarşı döyüşməməlidirlər:**

"Azərbaycan qanunvericiliyinə görə vətəndaşların xarici hərbi birləşmələrdə iştirak etməsi qadağandır. Qanunla qadağan olunubsa, Azərbaycan vətəndaşları buna yol verməməlidirlər. Əks halda, onlar dövlətə və qanunlara qarşı çıxmış olurlar və təbii ki, müvafiq qaydada məsuliyyətə cəlb olunmalıdırlar". A.Həsrət məsələnin mənəvi tərəfinə də diqqət çəkib: "Ukrayna hazırda işğala və hərbi təcavüzə məruz qalır. Rusiyanın hücumları nəticəsində minlərlə, on minlərlə dinc insan həyatını itirib, şəhərlər və kəndlər dağıdılıb. Belə bir vəziyyətdə Azərbaycan vətəndaşının gedib bu prosesdə iştirak etməsi üçün heç bir əsas yoxdur. Rusiya tərəfində dayanaraq Ukraynaya qarşı döyüşməyin heç bir izahı yoxdur". A.Həsrət əlavə edib ki, qanunları bir kənara qoysaq belə, həm ölkəmizin, həm də dünyanın qəbul etdiyi dəyərlər baxımından bu davranış qəbuledilməzdir:

"İnsan necə gedib işğalçı ilə eyni sırada dayanaraq Ukraynaya qarşı döyüşə bilər? Üstəlik nəzərə almaq lazımdır ki, həmin işğalçı bir vaxtlar Azərbaycanın da torpaqlarını işğal edib, Ermənistanın Azərbaycana qarşı işğalına dəstək verib, Xocalı kimi dəhşətli bir soyqırımının törədilməsində rol oynayıb və 1990-cı ilin 20 Yanvar faciəsini həyata keçirib. Hesab edirəm ki, bu cür şəxslərə qarşı çox ciddi tədbirlər görülməlidir. Mən dəfələrlə qeyd etmişəm ki, onlara açıq şəkildə "vətən xaini" adı verilməli və qanun çərçivəsində sərt şəkildə cəzalandırılmalıdırlar.

Bizi narahat edən başqa bir məqam isə odur ki, bəzən Rusiyanın ordusuna qoşularaq Ukraynaya qarşı döyüşən şəxslər dəfn olunarkən tabutlarının üzərinə Azərbaycan bayrağı sərilir, hətta onlara "şəhid" deyə müraciət edilir. Bu, qətiyyən doğru deyil. Onlar şəhid deyil və Azərbaycan bayrağı bu cür şəxslər üçün müqəddəs simvol kimi istifadə oluna bilməz. Belə şəxslərin Azərbaycan bayrağı altında dəfn edilməsi qəbuledilməzdir". Ekspert hesab edir ki, bu məsələ ilə bağlı ictimaiyyətə geniş məlumat verilməsi və maarifləndirmə tədbirlərinin gücləndirilməsi vacibdir.

A.Həsrət vurğulayır ki, xüsusilə Qarabağ müharibəsində iştirak etmiş bəzi şəxslərin belə münaqişələrə cəlb olunması halları müşahidə edilir: "Məlumdur ki, müharibə iştirakçılarında bəzən 'müharibə sindromu' deyilən psixoloji vəziyyət yarana bilir və bu da onların yenidən döyüş mühitinə meyil göstərməsinə səbəb olur. Bu baxımdan həmin şəxslərlə mütəmadi iş aparılmalı, onların vəziyyəti diqqətdə saxlanılmalıdır".

■ **"Rusiyanın Ukrayna ərazisində apardığı müharibəyə Azərbaycan vətəndaşlarının cəlb olunması həm hüquqi, həm də mənəvi baxımdan ciddi problem kimi qiymətləndirilməlidir". Bunu isə Hafta.az-a açıqlamasında hüquqşünas Vüqar Dadaşov deyib.**

V.Dadaşov qeyd edib ki, məsələnin digər mühüm tərəfi Rusiyanın Ukraynada apardığı müharibənin mahiyyəti ilə bağlıdır. Onun fikrincə, azərbaycanlıların bu müharibədə iştirakı Rusiyanın şovinist və imperialist siyasətinin həyata keçirilməsinə dolayısı ilə dəstək vermək deməkdir.

Ekspert xatırladır ki, Rusiya Prezidenti Vladimir Putin dəfələrlə SSRİ-nin dağılmasını faciə kimi qiymətləndirdiyini bildirib və Rusiyanın əsas məqsədlərindən birinin keçmiş Sovet məkanında təsir imkanlarını bərpa etmək olduğunu vurğulayıb. Onun sözlərinə görə, Rusiyanın Ukraynada bəzi əməliyyatları SSRİ simvollarından istifadə etməklə aparması da bu yanaşmanın göstəricisi kimi qiymətləndirilir: "Hətta bu kontekstdə azərbaycanlıların Rusiya tərəfdən müharibədə iştirak etməsi, ümumiyyətlə, bu müharibəyə qoşulması Azərbaycan dövlətinin və xalqının milli maraqları ilə tamamilə ziddiyyət təşkil edir".

*✍ Tahirə*